**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**
**Maliyyə və iqtisadi nəzəriyyə kafedrası**

# SİLLABUS
# TƏDQİQAT ÜSULLARI

***( 3 kredit (AKTS))***

***Müəllim haqqında məlumat***


***Müəllim:Salahov Elçin Arif oğlu***
**Kafedra**: Maliyyə və iqtisadi nəzəriyyə kafedrası, 1-ci mərtəbə, 121
**İş nömrəsi:** (022) 266-94-53
**Mob** 055 461 25 96
**İş saatları: 8 00 – 16 00**
**E-mail:** elchinsalaho@mail.ru

**Payız semestri: 2021**

**GƏNCƏ- 2021**

Müəllim əvvəlcədən tələbələrə elektron poçtla məlumat verəcək və ya iş vaxtının yenidən təyin edilməsi zərurəti yarandıqda bu barədə məlumat verəcəkdir.

Bu sillabus kursa aid olan bütün praktiki aspektləri, tələbləri və müddətləri əhatə edən əsas sənəddir. Sənəd tələbələr tərəfindən alındıqdan dərhal sonra hərtərəfli oxumalı və semestr ərzində bu sənədin tələblərinə əməl edilməlidir.

Tələbələr WhatsApp qrupu və ya tələbələrin e-poçt qrupu vasitəsilə müəllimlə əlaqə qura bilərlər. Bu e-poçt ünvanı, elektron məlumatların ötürülməsi üçün tələb olunur, burada tələbələr müəllim tərəfindən təqdim oluna fənləəlaqəli informasiyalarla tanış ola bilərlər.

## *Kurs cədvəli*

Dərslər aşağıdakı zamanlarda Əyani formada auditoriyalarda keçiriləçəkdir. Həftə içi

çərşənbə 18:30,

çümə axşamı 17:00 .

## *Fənnin təsviri*

Ölkəmizdə yüksək ixtisaslı kadrların hazırlanması ali müəssisələrin qarşısına qoyulan əsas vəzifədir və bu istiqamətdə onların öhdəsinə düşən əsas məsələ yüksək səviyyədə elmi-tədqiqat işlərini apara bilən magistrantların hazırlanmasıdır.

“Tədqiqat üsulları” fənninin tədrisinin əsas məqsədi də tədqiqat üsullarının əsaslarını maqistrantlar tərəfindən mənimsənilməsini təmin etməkdir. Tədqiqat üsulları fənni magistrantların elmi-tədqiqatların aparılması istiqamətlərinin və yollarının oyrənilməsini nəzərdə tutur. İlk növbədə magistr tədqiqatlar və onların elmi və praktiki fəaliyyətdə rolunu müəyyən etməli, tədqiqatın obyektini və predmetini müəyyən etməyi bacarmalıdır. Magistrantların keyffiyətli tədqiqatların aparılmasının təşkili və metodologiyası oyrənmələrinə kömək etməlidir. Bu fənn çərçivəsində

magistrantlara elmi tədqiatın aparılması istiqamətinin seçilməsi, elmi-tədqiqat işinin planlaşdırılması və tədqiqatların işlənmə prinsiplərini, tədqiqat üsullarının müxtəlif formaları və onların işlənilməsi, iqtisadi tədqiqatların aparılması metodlarını öyrədir.

“Tədqiqat üsulları” fənni magistrların sərbəst şəkildə elmi-tədqiqatlarının işləməsi və tədqiqat üsullarının mənimsəməsi üçün nəzərdə tutulub.Təçrübə məşğələləri magistrların elmi tətqiqatların əsaslarının nəzəri və metodoloji baxımdan qavramalarının, tədqiqat üsullarının müəyyən edilməsi üçün nəzərdə tutulur, elmi ədəbiyyatlardan və müxtəlif mənbələrdən istifadə etməyi öyrədir. Nəzərdən keçirilən tədqiqat üsulları misallarla təchizatı analitik prosedurların məntiqini başa düşməyə imkan verir və praktiki fəaliyyətdə istifadə edilməsinə kömək edir.

Fənn tələbələrə aşağıdakıları təmin edəcəkdir:

- Elmi tətqiqatın fundamental və tətbiqi istiqamətlərini müəyyənləşdirmək;
- Tətqiqat üsullarının mahiyyəti və praktiki elmi işdə tətbiq etmə bacarığını formalaşdırmaq;
- Elmi tətqiqat konsepsiyasının qurulması prinsiplərinin öyrənilməsi;
- iqtisadi təhlilin əsas metodlarının spesifikası ilə tanış etmək;
- elmi təhlildə istifadə olunan göstəricilərlə işləmə üsullarının müəyyənləşdirilməsi;
- Mikroiqtisadi və makroiqtisadi,maliyyə və idarəetmə təhlil üsullarının spesfik xüsusiyyətlərinin öyrənilməsi.

## ***Planlaşdırlan təlim nəticələri***

Fənn tədrisinin sonunda tələbələr aşağıdakıları mənimsəməlidir:

• tədqiqatının aparılmasının universal, nəzəri və enpirik üsullarının mənimsənilməsi;

- İqtisadi təhlilin statik və dinamik formalarının qavranılması;
- Statik, qrafik və riyazi üsulların tətbiqi qaydaları ;

- Dissertasiya işlərinin yazılmasında tədqiqat üsullarından istifadə formaları;
- Elmi – tədqiqat işlərində tətbiq edilən metodologiyanın prioritet istiqamətlərinin müəyyənləşdirilməsi.

*Fənn üçün 45 saat (3 kredit) verilir. Fənn 15 həftəlik bir semestr ərzində tədris olunmaq üçün hazırlanmışdır. Hər həftə aşırı 2 saat mühazirə və hər həftə 2  seminar var.*

***Fənnin tematik təqvimi***

| № | Mövzular | saat | |
|---|---|---|---|
| | | Mühazirə | Seminar |
| 1. | Elmin mahiyyəti və funksiyaları | 2 | 2 |
| 2. | Tədqiqat üsullarının mahiyyəti | | 2 |
| 3. | Elmi – tədqiqat konsepsiyası qurulması prinsipləri | 2 | 2 |
| 4. | Tədqiqatların aparılmasının universal üsulları | 2 | 4 |
| 5. | Nəzəri tədqiqat üsulları | 2 | 2 |
| 6. | Empirik tədqiqat üsulları | 2 | 2 |
| 7. | İqtisadi təhlilin əsas metodları | 2 | 4 |
| 8. | İqtisadi təhlilin ümumi göstəriciləri | | 2 |

| | | | |
|---|---|---|---|
| 9. | İqtisadi təhlilin növlərinin təsnifləşdirilməsi | 2 | 4 |
| 10. | İqtisadiyyatın inkişafında elmi – tədqiqatların prioritet istiqamətləri | | 2 |
| 11. | Dissertasiya işlərinin yerinə yetirilməsində və elmi əsərlərin yazılmasında tədqiqat üsullarının rolu | 1 | 4 |
| | **Cəmi :** | 15 | 30 |

## *Mühazirənin quruluşu*

Mühazirə müddəti 80 dəqiqə olmaqla. Mühazirə zamanı mövzu ilə bağlı qeydlər etmək tələbələrin məsuliyyətidir. Mühazirənin elektron versiyası müəllim və ya universitetin veb saytından əldə edilə bilər.
Mühazirə zamanı slayd materiallardan tez-tez istifadə ediləcəkdir. Mühazirə zamanı tələbələr mühazirəçidən qeyri-müəyyən olan materialı təkrarlamasını və / və ya aydınlaşdırmasını tələb edə bilərlər. Hər bir mövzu üzrə ədəbiyyatın müvafiq siyahısı tədris proqramının son hissəsində verilmişdir. Bundan əlavə, tələbələrin internet resurslarından istifadə etmələri məsləhətdir.

Mövzuya ayrılan saatların 25% -dən çoxunda iştirak etməyən tələbələr imtahana buraxılmırlar (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı).

## *Seminar*

Seminar mövzuları və istifadə olunan ədəbiyyat siyahısı əvvəlcədən tələbələrə təqdim ediləcəkdir. Hər seminar üçün iki saat vaxt verilir.

Seminarın əvvəlində tələbələrin nəzəri bilikləri təsdiqlənəcəkdir. Hər bir tələbə verilən suallara cavab verməli və mövzunu və onun əsas məntiqini başa düşdüyünü nümayiş etdirməlidir. Cavablar əzbərlənərsə və səthi olarsa, tələbənin fənni mənimsəmədiyi hesab olunur.

Hər tələbədən mövzu ilə əlaqəli bir təqdimat hazırlamaq tələb olunur. 10-15 dəqiqəlik təqdimatlar əvvəlcədən hazırlanmalıdır. 10-15 slayddan ibarət ola bilər. Təqdimatın sonunda nəticələri ümumiləşdirmək lazımdır. Təqdimatdan sonra mövzu bütün auditoriya tərəfindən müzakirə olunur. Tələbələrə əhatə olunan mövzu ilə bağlı test sualları da təqdim olunur. Tələbələr hər dərsdə sual cavabda aktiv iştirak etməli, mövzunu sərbəst, aydın, ardıcıl danışmağı bacarmalıdır.

***Tələbələr üçün tövsiyələr:****Tələbələr auditoriyada fəal iştirak etməyə, sual verməkdən, fikirlərini bildirməkdən və səhv etməkdən çəkinməməlidirlər.*

## *Sərbəst işlər*

Fərdi tapşırıqlar müəllim tərəfindən təyin olunmuş vaxtda təqdim edilməlidir. Fərdi tapşırıqlar iki səhifədən az olmamalıdır. Fərdi tapşırıqlar tələbənin fəsli tam başa düşdüyü zaman qəbul edilir. Əks təqdirdə, tapşırıq qəbul edilmir və ümumi baldan çıxılır. Fərdi tapşırıqların gec təqdim edilməsi qəbul edilmir və qiymətləndirilmir. Bununla birlikdə, növbəti ayın balları hesablanarkən, yuxarıdakı şərtlər daxilində fərdi tapşırıqlar yenidən təqdim edilə bilər.
Bundan əlavə olaraq, ədəbiyyat icmalı, qrup və ya fərdi şəkildə təqdimatlar, sorğu və müəllimin müəyyənləşdirdiyi digər formada aparıla bilər.

## *İmtahan*

İmtahan beş sualdan ibarət olacaqdır. Təqdim olunan bal dəyişdirilə bilməz (mexaniki və ya mövzunun hesablanmasında səhvlər istisna olmaqla). Verilən imtahan balı ilə razılaşmırsınızsa, bu məqsədlə Universitet tərəfindən yaradılanApelyasiya komissiyası şikayət edə bilərsiniz. Apelyasiya komissiyası şikayətinizi əsaslı hesab edərsə, sizə yenidən imtahan vermək imkanı verilə bilər.

## *Qiymətləndirmə*

Kurs qiymətləri aşağıdakı cədvəldə qeyd edildiyi kimi dərsə davamiyyət, fərdi tapşırıqlar, seminar balları və buraxılış imtahanı balları ilə müəyyən ediləcək:

| Fəaliyyət növü | Maksimum qiymətləndirmə | Yekun qiymətləndirmənin %-i |
|---|---|---|
| Dərsə davamiyyət | 10 bal | 10% |
| Fərdi tapşırıqlar (10 mövzu) | Hər sərbəst işə 1 bal | 10% |
| Seminar nəticələri | 30 bal | 30% |
| İmtahan imtahan nəticəsi | 50 bal | 50% |
| Yekun kurs balı | 100 bal | 100% |

## *Tövsiyə olunan ədəbiyyat*


*Azərbaycan dilində*

1. Allahverdiyev Ə. Bazar iqtisadiyyatının təşəkkülü prosesində makroiqtisadi dinamik və struktur dəyişikliklərinin tənzimlənməsi problemləri (monoqrafiya). Bakı, 2001.

4. Bayramov Ə.Ə. İnhisarizm (monoqrafiya). Bakı, 2002.

6. Əhmədov Ə. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı,2002.

8. Əlirzayev Ə.Q. İqtisadiyyat: düşüncələr, baxışlar. Bakı,2002.

9.Əliyev M.T. Azərbaycanda iqtisadiyyatın formalaşması və inkişafı problemləri. Bakı, 2002.

10. Əfəndi E. İqtisadi artım problem və onun modelləşdirilməsinin nəzəri əsasları / Milli iqtisadiyyatın problemləri (məqalələr toplusu) II buraxılış. Bakı, 2007.

12. İmanov Q., Həsənli Y. Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri. Makro iqtisadi təhlil.Bakı, 2001.

16. Məmmədov N.M. Azərbaycanın milli iqtisadiyyatının formalaşması və inkişafı problemləri. Bakı, 2004.

17. Məmmədov N.M. Ölkənin iqtisadi təhlükəsizliyi. Bakı, 2005.

18. Nadirov A.A., Muradov Ş.M., Hüseynov T. və b. Azərbaycan iqtisadiyyatı. Bakı, 2003.

19. Kərimli İ.A. İqtisad elmi: aktual problemlər və real yanaşmalar. Bakı,«AVROPA» nəşriyyatı 2013, 504 səh.

**Rus dilində**

1. Ануфриев А. Ф. Научное исследование. Курсовые, дипломные и диссертационные работы / А. Ф. Ануфриев; Моск. гос. открытый педагогический университет им. М. А. Шолохова, Фак. психологии. — М.: Ось-89, 2004. — 112 с. — Библиогр.: с. 49-52 (55 назв.).

2. Басаков М. И. От реферата до дипломной работы: рекомендации студентам по оформлению текста: учеб. пособие для студентов вузов и колледжей / М. И. Басаков. - Ростов-н/Д., 2001.

4. Волков Ю. Г. Диссертация: подготовка, защита, оформление:

практическое пособие / Ю. Г. Волков. - М., 2001.
6. Лешкевич Т. Г. Философия науки: традиции и новации: учеб. пособие для вузов / Т. Г. Лешкевич. – М., 2001.
7. Научные работы: методика подготовки и оформления / И. Н. Кузнецов ; Авт.-сост. И. Н. Кузнецов. — 2-е изд., перераб. и доп. — М.: Амалфея, 2000. — 544 с.
10. Рузавин Г. И. Методология научного исследования: учеб. пособие для вузов / Г. И. Рузавин. М., 1999.
11. Сабитов Р. А. Основы научных исследований: учеб. пособие / Р. А. Сабитов. – Челябинск, 2002
13. Спесивцева О. И. Основы научных исследований : учеб. пособие / О. И. Спесивцева / Челяб. гос. ун-т. – Челябинск, 2000.
14. Аббасов Ч.И. Пути интеграции Азербайджана в мировую экономику. Баку, 2004.
15. Бабашкина А.М. Государственное регулирование национальный экономик. М., 2006.
16. Богомолов В.А. Экономическая безопасность. М., 2006,303 с.
18. Государственное регулирование рыночной экономики. Учебник. Под общей редакцией В.И. Кушлина, Н.А. Волчина. М.: Экономика, 2000, 735 с.

## *Əlavə resurslar*

1. https://president.az/articles/50474
2. Strateji yol xəritəsi
3. http://www.economy.gov.az/
4. http://agro.gov.az/
5. https://www.usda.gov/
6. https://bigfuture.collegeboard.org
7. https://www.britannica.com/topic/farm-management
8. https://www.sciencedirect.com/topics/
9. www.fao.org